

Norveçli dustaqlar İsveç həbsxanalarılnda cəza çəkə bilərlər. Norveçin ədliyyə naziri Anders Anundsen isveçli həmkarı Beatrise Aska müraciət edərək müvəqqəti olaraq İsveç həbsxanalarından istifadə etmələrinə icazə verməyi xahiş edib:

"Mən bilirəm ki, İsveç həbsxanalarında boş yerlər çoxdur və bu ölkədə islah-əmək müəssisələrinin bəziləri bağlanır. Bununla bağlı bəzi yerləri icarəyə verməyin mümkünlüyünü öyrənmək istəyirdim".

Hazırda Norveçdə 1200-dən artıq ittiham olunan şəxs var ki, onlar həbsxanalarda yer çatışmazlığına görə cəzalarını çəkəməyə başlamayıblar. Hazırda İsveç ərazisində 82 islah-əmək müəssisəsi var. Onlardan 4-ü bu yaxınlarda ölkədə dustaqların sayının az olması səbəbindən ixtisara salınıb.